**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri i.ü.f.d., dos. E. Q. Məmmədov**
**(Protokol № )**

# "SOSİAL İŞDƏ İDARƏETMƏ" FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

## (S İ L L A B U S)

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin şifri:** | **00110** |
| **Fənnin növü:** | **Əsas** |
| **Tədris ili:** | **--** |
| **Fənnin tədris semestri:** | **Yaz** |
| **Fənnin tədris forması:** | **Əyani** |
| **Tədris dili:** | **Azərbaycan** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **--------** |

**Kafedra:** “İctimai idarəetmə və sosial innovasiyalar”

**Tədris yükü:** --------

**Kredit sayı:** 5

## MÜƏLLİM HAQQINDA MƏLUMAT


**Fənni tədris edən müəllim:** B/müəl. Köçərli Leyla Rais qızı

**E-mail ünvan:** leyla_kocharli@unec.edu.az

**İş telefonu:**


**Tələbələr üçün qəbul vaxtları:** ---------

## FƏNNİN TƏSVİRİ

Sosial işin idarə edilməsi sosial iş peşəsinin idarə edilməsidir və sosial işçinin bu peşənin gördüyü işlərlə, həyata keçirdiyi funksiyalarla bağlı idarəetmə fəaliyyətidir. Sosial işin idarə olunması digər komanda yoldaşları ilə və problem yaşayan ya da müraciət edənlə, problem yaratdıqları düşünülən və ya problemdən təsirləndiyi görülən (zərər çəkmiş) çevrəsi ilə edilən bir idarəetmədir. Hər şeydən əvvəl, sosial işçinin düşüncəsində, tətbiq ediləcək peşə fəaliyyəti ilə əlaqədar planlaşdırmanın, proqramlaşdırmanın (tarix və vaxt), sosial iş peşəsinin bu fəaliyyətdə əldə etmək istədiyi məqsədlərin, neçə nəfərə, kimlərə, necə yaxınlaşacağının, tətbiq üsullarının idarə edilməsidir.

Sosial işin idarə edilməsi öz daxilində fərqli sistemlər formalaşdırır, çünki müxtəlif fənlər və fərqli nəzəriyyələrdən yararlanaraq, idarəetmə yanaşmasını və modelini tətbiq edir.

## FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

“Sosial işdə idarəetmə” fənni sosial xidmət müəssisələrinin fəaliyyəti, sosial işin effektiv idarə edilməsi üçün zəruri məlumatların əldə edilməsi məqsədilə tələbələrə lazımi məlumatların ötürülməsi məqsədi daşıyır.

Fənninin tədrisi zamanı qarşıda duran vəzifələr aşağıdakılardır:

- İdarəetmə ilə bağlı nəzəriyyələri öyrənmək;
- Sosial işin idarə olunmasında əsas hesab olunan davranış yanaşmalarını öyrənmək;
- Sosial işin idarə olunmasının təşkili mexanizmlərini öyrənmək;
- Sosial Xidmətlər Agentliyinin, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyin və Qeyri-hökumət təşkilatların sosial işlə bağlı fəaliyyətləri və missiyaları ilə tanış olmaq;
- Beynəlxalq sferada sosial iş təcrübəsi ilə tanış olmaq.

Tələbələrin sosial iş sahəsində idarəetmə məsələlərini düzgün dərk etmələri gözlənilir.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI

Bu fənn sosial işdə idarəetmənin vacid olan amilləri, sosial işin üstünlükləri, sosial işçilərin kimliyi, onların ümumi dəyərləri, müraciətçi ilə münasibəti, o cümlədən ədalət prinsipləri, həmkarlarına qarşı etik məsuliyyəti, onların vəzifə və məsuliyyətləri, iş yerlərinin təşkili, həssas qruplarla sosial işin təşkilinin əsas meyarları, komandada birgə işləmək bacarıqları, rəhbərliklə işgüzar münasibətlərin qurulması, heyətlə işin düzgün qurulması, vaxtın, resursların, bilik və bacarıqların effektiv idarəedilməsi, münaqişələrin qarşısının alınması, həlli və ya idarəolunması və s. kimi sahələri əhatə edir.

## ÖYRƏNİLMƏNİN NƏTİCƏLƏRİ

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

***Tələbələr bilməlidirlər:***

- İdarəetmə nəzəriyyələrini və mövcud olan yanaşmaları, uğurlu idarəetmənin mərhələlərini;
- Sosial işin idarə olunmasında davranış yanaşmasını;
- Sosial işin idarə olunmasında daxili idarəetmə (peşə rəhbərliyi) və xarici idarəetmənin (qurum / təşkilat rəhbərliyi) rolunu;
- Sosial işin təşkilində rəqəmsal texnologiyaların xüsusiyyətlərini;
- Sosial iş ilə sosial siyasət arasında qarşılıqlı əlaqəni;
- Sosial xidmətin idarə edilməsi ilə sosial işin idarə edilməsi arasındakı fərqı;
- Sosial xidmətlərin və sosial işin idarə edilməsində nəzarətin həyata keçirilməsi qaydalarını;
- Sosial iş üzrə supervayzerlər tərəfindən həyata keçirilən superviziya prosesini;
- Sosial Xidmətlər Agentliyinin, DOST Agentliyinin və Qeyri-hökumət təşkilatlarının sosial işlə bağlı fəaliyyətləri və missiyalarını;
- Həssas qruplarla işin idarə olunmasında diqqət edilməli məqamlarını;
- İdarəetmə yanaşmalarına görə üstünlük verilən komanda növlərini;
- Sosial işin effektiv idarəetmə sistemlərini və mexanizmlərini;
- Münaqişələrin qarşısının alınmasında sosial işin rolunu;
- Beynəlxalq sferada sosial iş təcrübəsini.

***Tələbələr bacarmalıdırlar:***

- Qiymətləndirmə ilə başlayan, planlaşdırma, tətbiqetmə ilə davam edən, nəzarət və dəyərləndirmə ilə bitən prosesin idarə edilməsi qaydalarını tətbiq edir;

- Hər fərqli davranış məlumatlarından nəticə çıxararaq, bu nəticələri gələcəkdə peşəkar təcrübələrdə, insanlarla ünsiyyətdə, fərdlərlə işləyərkən, qruplarla işlədikdə, icma ilə işləyərkən tətbiq etməyi;
- Müştərilərinə onlayn məsləhət, telefonla məsləhət, video məsləhət, kiberterapiya (avatar terapiyası), veb-əsaslı müdaxilələr, elektron sosial şəbəkələr, elektron poçt və mətn mesajları vasitəsilə xidmətlər göstərə bilməyi;
- "Karpman drama üçbucaği", "JoHari Pəncərəsi", Psixodrama / sosiodrama haqqında geniş bilgilərə sahib olmaqla gələcəkdə sosial işçi kimi həssas qruplarla işləyərkən onların sosial rifahının yaxşı olması üçün qarşılaşdıqları problemləri aradan qaldırmaq məqsədilə düzgün istiqamətlər göstərməyi;
- Peşəkar fəaliyyətlərində sosial işə yaxın olan multidisiplinar, interdisiplinar və transdisiplinar komanda işlərini tətbiq etməyi;
- Beynəlxalq Sosial İş üzrə Təşkilatların mübarizə apardıqları qlobal problemləri araşdıraraq, ölkə üçün səmərəli həlli variantlarını hazırlamaq.

Ümumiyətlə bu fənn "Sosial iş" ixtisası üzrə təhsil alan tələbələrin peşəkar sosial işçi kimi yetişməsinə yardımçı olacaqdır.

## PREREKVİZİTLƏR:

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## FƏNNİN MÜHAZİRƏ VƏ MƏŞĞƏLƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 2 saat (2 saat mühazirə olmaqla) vaxt ayrılır. Fənn 8 məşğələ mövzusundan ibarətdir. 8 mövzunun hər birinə 2 saat vaxt ayrılır.

| Sıra | Mövzuların adları | Mühazirə dərsləri | Məşğələ dərsləri |
|---|---|---|---|
| 1 | İdarəetmə fəaliyyətinin nəzəri əsasları və vəzifələri | 2 | 2 |
| 2 | Sosial iş və idarəetmə | 2 | 2 |
| 3 | Sosial işin idarə olunmasında davranış yanaşması | 2 | |
| 4 | Sosial işin idarə olunmasının xüsusiyyətləri və təşkili mexanizmləri | 2 | 2 |
| 5 | Sosial işin idarə edilməsində sosial siyasət | 2 | |
| 6 | Sosial xidmətlərin idarə edilməsi | 2 | 2 |
| 7 | Sosial xidmət və sosial iş idarəetməsində nəzarət | 2 | |
| 8 | Sosial işçilərin vəzifə və məsuliyyətləri | 2 | |
| 9 | Dayanıqlı və operativ sosial təminat (DOST) agentliyinin fəaliyyətinin əsas məqsədi və istiqamətləri | 2 | 2 |
| 10 | Sosial xidmətlərin idarə edilməsində qeyri- | 2 | |

| | | | |
|---|---|---|---|
| | hökumət təşkilatları | | |
| 11 | Həssas qruplar üzrə sosial işin təşkili | 2 | 2 |
| 12 | Sosial işçilərin komanda idarəetmə prinsipləri | 2 | |
| 13 | Sosial işin effektiv idarəetmə sistemləri və mexanizmləri | 2 | 2 |
| 14 | Sosial işdə münaqişələrin idarə olunması | 2 | |
| 15 | Sosial işin idarə olunmasında beynəlxalq standartlar: təcrübə və meyllər | 2 | 2 |
| | **CƏMİ** | **30** | **15** |

## ƏSAS DƏRSLİK VƏ ƏDƏBİYYAT

**“Sosial işdə idarəetmə” fənninin tədrisində istifadə ediləcək ədəbiyyat siyahısı.**

| Fənnin tədrisində istifadə olunan əsas dərslik | Fənnin tədrisində istifadə olunan əlavə dərslik | Fənnin tədrisində istifadə olunan internet resursları |
|---|---|---|
| 1. Prof. Dr. İlhan Tomanbay “Sosyal hizmet yönetimi” (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Auzef Yayını 2016 | **1.** T.C. Anadolu Üniversitesi, Açıköğretim Fakültesi, Prof.Dr. Deniz Taşçı, Prof. Dr. Nuray Gökçek Karaca, Yrd. Doç. Dr. Emre Demirci, Doç. Dr. Süleyman Sözen, Doç. Dr. Mesude Canan Öztürk, Yrd. Doç. Dr. Murat Ertuğrul, Yrd. Doç. Dr. Muammer Sarıkaya, Hakan Aydın “Sosyal Hizmet Yönetimi” Ders Kitabı, Eskişehir, Ocak 2013 | 1. http://e-qanun.az/<br>2. http://sosial.gov.az/<br>3. https://dost.gov.az/<br>4. https://sxa.gov.az/<br>5. https://www.socialworkers.org/Practice/NASW-Practice-Standards-Guidelines/NASW-Standards-for-Social-Work-Case-Management<br>6. https://www.socialworkportal.com/micro-mezzomacro-social-work/<br>7. https://www.socialworkdegreecenter.com/bestinternational-social-workjob-opportunities/ |

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

“Sosial işdə idarəetmə” fənni üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetə yerləşdirilmişdir.

## MÖVZULARIN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat sıyahısı |
|---|---|---|---|
| 1. | İdarəetmə fəaliyyətinin | İdarəetmənin mahiyyəti. | 1.Prof. Dr. İlhan Tomanbay |

| | | | |
|---|---|---|---|
| | nəzəri<br>əsasları və vəzifələri | İdarəetmə nəzəriyyələri (idarəetmə yanaşması). İdarəetmənin xarakterik xüsusiyyətləri. Uğurlu idarəetmənin mərhələləri. | "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Auzef Yayını 2016, seh:19-72<br>2.T.C. Anadolu Üniversitesi, Açıköğretim Fakültesi, Prof.Dr. Deniz Taşçı, Prof. Dr. Nuray Gökçek Karaca, Yrd. Doç. Dr. Emre Demirci ve b. "Sosyal Hizmet Yönetimi" Ders Kitabı, Eskişehir, Ocak 2013 Səh: 5-29<br>3. Tamer Koçel "İşletme Yöneticiliği", İstanbul-1998, səh.120-122<br>4.https://tr.questionofwill.com/11667-theory-z-of-william-ouchi-model-advantages-disadvantages-and-examples |
| **2.** | Sosial iş və idarəetmə | Sosial işin mahiyyəti və vəzifələri. Sosial iş və idarəetmə arasındakı əlaqənin qiymətləndirilməsi. Azərbaycanda sosial işin təşkili. | 1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 30 dekabr 2011-ci il<br>2. Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, AUZEF Yayını 2016, səh: 7-9.<br>3. İstanbul Sabahattin Zaim Üniversitesi, Yrd. Doç. Dr. Mehmet Birinci, Arş. Gör. Fatih Altun ve Arş. Gör. Kaan Sevim "Sosyal Çalışma Ve Yönetim Arasındaki İlişkinin Değerlendirilmesi", səh: 206-211<br>4. Berzy, B. (1984, Mart). Social work administration: dynamic management and human relationship [Review of the book]. Social Service Review, 58(1), page 168-169.<br>5. Heffernan, K. (2006). Social work, new public management and the language of 'service user'. British Journal of Social Work, 36(1), page: 139-147. |
| **3.** | Sosial işin idarə olunmasında davranış yanaşması | İdarəetmədə davranış yanaşması. Sosial işin idarə olunmasında sosioloji, sosial psixoloji, psixoloji, antropoloji, bürokratik yanaşma. İdarəetmədə təşkilati davranış. İdarəetmədə sosial işin | 1.Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, seh: 103-112. 2.Eren, Erol, 2001, Örgütsel Davranış ve Yönetim Psikolojisi, İstanbul.<br>3.K. A. Şahbazov, M. H. |

| | | | |
|---|---|---|---|
| | | davranış elmlərinə təsirləri | Məmmədov, H. S. Həsənov "Menecment" (dərslik), Bakı-2005, səh: 88, 89.<br>4.Şəfa Tofiq Qızı Quliyeva "İdarəetmə Psixologiyası Və Sosiologiyası", Dərs Vəsaiti, B a k ı – 2 0 18, Səh: 24-62, 119-142<br>5.İ.e.n.,b.m.,N.F.Axundova "Təşkilati davranış" Dərs vəsaiti, Bakı – 2014, səh: 5-13 |
| **4.** | Sosial işin idarə olunmasının xüsusiyyətləri və təşkili mexanizmləri | Sosial işin idarə olunmasının əsasları. Sosial işin idarə olunmasının xüsusiyyətləri. Sosial işin idarə olunmasının təşkili mexanizmləri. Sosial işin təşkilində rəqəmsal texnologiyaların xüsusiyyətləri. | 1.Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, 2016<br>2.Meagan Mitchell The Social Work "Helping Process"-Engagement, Assessment, Planning, Intervention, Evaluation, and Termination ASWB - Agents of Change Social Work Test Prep, March 19, 2022 / https://agentsofchangeprep.com/blog/the-social-work-helping-process/<br>3.https://agentsofchangeprep.com/blog/the-role-of-technology-in-modern-social-work-practice/ |
| **5.** | Sosial işin idarə edilməsində sosial siyasət | Sosial siyasətin mahiyyəti və vəzifələri. Sosial iş ilə sosial siyasət arasında qarşılıqlı əlaqə. Sosial iş və sosial siyasətin tətbiqində ideologiya. | 1. İstanbul Sabahattin Zaim Üniversitesi, Yrd. Doç. Dr. Mehmet Birinci, Arş. Gör. Fatih Altun ve Arş. Gör. Kaan Sevim "Sosyal Çalışma ve Yönetim Arasındaki İlişkinin Değerlendirilmesi", səh: 211-213<br>2. Mehmet Zafer Danış "Sosyal hizmet mesleği ve disiplininde sosyal politikanin yeri ve önemi" Cilt 18, Sayı 2 Ekim 2007, səh:52-63. 3.Prof. Dr. Halis Yunus Ersöz "Sosyal Politika", İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi'nde okutulmak için hazırlanmış ders notu, İstanbul, Səh: 7-14<br>4. Davis, V. L. ve Hagen J. L. (1992) "The Problem of Wife Abuse: The Interrelatinship of Social Policy and Social Work Practice." Social Work, 37 (1) 15-21. |
| **6.** | Sosial xidmətlərin idarə edilməsi. | Sosial xidmətin mahiyyəti və formaları. Sosial xidmətin idarə edilməsinin xüsusiyyətləri. Sosial xidmətin idarə edilməsi ilə | 1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu.<br>2. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun |

| | | | |
|---|---|---|---|
| | | sosial işin idarə edilməsi arasındakı fərqlər. | tarixli Fərmanı ilə təsdiq edilmiş Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi. 3. Prof. Dr. İlhan Tomanbay “Sosyal hizmet yönetimi” (Ders notu), İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, seh: 349-353, 362-365. 4. İstanbul Sabahattin Zaim Üniversitesi, Yrd. Doç. Dr. Mehmet Birinci, Arş. Gör. Fatih Altun ve Arş. Gör. Kaan Sevim “Sosyal Çalişma Ve Yönetim Arasindaki İlişkinin Değerlendirilmesi”, səh: 213-217 5. Gökçek Karaca, Nuray; Emre Demirci “Sosyal Hizmet Yönetimi”, Eskişehir: Anadolu Üniversitesi-2013 |
| **7.** | Sosial xidmət və sosial iş idarəetməsində nəzarət | Nəzarətin mahiyyəti, məqsədi və əsas prinsipləri. Sosial xidmətlərin idarə edilməsinə nəzarət. Sosial işin idarə edilməsinə nəzarət | 1. Prof. Dr. İlhan Tomanbay “Sosyal hizmet yönetimi” (Ders notu), İstanbul Üniversitesi Açik Ve Uzaktan Eğitim Fakültesi, seh: 369-378<br>2. Gökçek Karaca, Nuray; Emre Demirci “Sosyal Hizmet Yönetimi”, Eskişehir: Anadolu Üniversitesi-2013,<br>3. T. C. Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Kamu Yönetimi Anabilim Dalı “Kamu yönetiminde denetim olgusu ve Türkiyede kamu yönetiminin denetlenmesi” Yüksek Lisans Tezi Elçin Akpınar Tez Danışmanı: Yard. Doç. Dr. Vahdettin AYDIN ISPARTA, 2006, səh: 3-29<br>4. AKYEL,Recai (2010), Bağımsız Kamu Dış Denetimi (Yüksek Denetim) İle İç Denetim Arasında Koordinasyon, Bütçe Dünyası Dergisi, 34/2, 131-144. |
| **8.** | Sosial işçilərin vəzifə və məsuliyyətləri | Sosial sektorda sosial işçilərin yeri və rolu. Sosial işçilərin şəxsi və mənəvi keyfiyyətləri. Sosial işçilərin səriştə və bacarıqları. Müraciətçilərə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasında superviziyanın rolu. | 1. Prof. Dr. İlhan Tomanbay “Sosyal hizmet yönetimi” (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, AUZEF Yayını 2016<br>2. Prof. Dr. İlhan Tomanbay “Madde bağimliliği ve sosyal hizmet” İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Lisans Tamamlama Programı, səh: 317. 3. European Union, “Konstitusiya” Araşdırmalar |

| | | | |
|---|---|---|---|
| | | | Fondu “Sosial iş bacarıqları”, Bakı-2018, səh: 17-20, 63-65<br>4. Sakine Çiğdem KOÇ “Sosyal Hizmet Uzmanlarının Sorun Çözme Becerileri Üzerine Bir Araştırma” Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, Sosyal Hizmet Anabilim Dalı Yüksek Lisans Tezi, Ankara, 2015<br>5. 5. T.C. Kocaeli Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyal Hizmet Anabilim Dali Sosyal Hizmet Bilim Dali “Sosyal çalişma görevlilerinin tükenmişlik düzeyleri ve süpervizyonun önemi: İstanbul ili örneği” Yüksek Lisans Tezi, Kocaeli 2018, Səh: 47-56<br>6.https://worldscholarshipforum.com/az/sosial-iş-proqramları/ |
| **9.** | Dayanıqlı və operativ sosial təminat (DOST) agentliyin fəaliyyətinin əsas məqsədi və istiqamətləri | Dayanıqlı və operativ sosial təminat agentliyin yaranmasının zəruri şərtləri və tarixi inkişaf dövrü. Dayanıqlı və operativ sosial təminat agentliyin fəaliyyətinin məqsədi və vəzifələri. Dost mərkəzlərində əhaliyə göstərilən xidmətlər. | 1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizamnaməsi”. 2. Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “DOST” mərkəzlərində xidmət göstərilməsi Qaydası. |
| **10.** | Sosial xidmətlərin idarə edilməsində qeyri-hökumət təşkilatları. | Qeyri-hökumət təşkilatlarının mahiyyəti, xüsusiyyətləri və tipləri. Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin əsas prinsip və formaları, prioritet sahələri. Qeyri-hökumət təşkilatlarının sosial işlə bağlı fəaliyyətləri və missiyaları | 1. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasinin Qanunu<br>2. Prof. Dr. İlhan Tomanbay “Sosyal hizmet yönetimi” (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, İstanbul Üniversitesi, AUZEF Yayını 2016, seh:174-176, 205-208, 428.<br>3. Doç. Dr. Tarık Tuncay “Sosyal Hizmet Örgütlerinin Yapısı” Ünite 5, Atatürk Ünıversıtesı Açıköğretım Fakültesı səh: 9-15<br>4. Azərbaycan Respublikasi Təhsil Nazirliyi, Baki Biznes Universiteti, İlqar Hüseynov, Sabir Əmirxanov “İctimaiyyətlə |

| | | | |
|---|---|---|---|
| | | | əlaqələr", (dərslik) Baki – 2016, səh 426-436<br>5. Doç. Dr. Faruk Taşcı "Uluslararası sosyal politika" Ders notu, Çalışma ekonomisi ve endüstri ilişkileri İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Səh: 240-250.<br>6. Seda Yavaşca "Sosyal Hizmetin Savunuculuk Rolü Bağlamında Sivil Toplum Örgütleri" / Toplumsal Politika Dergisi / Turkish Journal of Social Policy. Yıl: 2021, Cilt: 2, Sayı: 1, ss. 1-10. |
| **11.** | Həssas qruplar üzrə sosial işin təşkili | Sosial işçilərin həssas qruplarla işləmə metodikası. Həssas qruplarla işin idarə olunmasında diqqət edilməli məqam -"karpman drama üçbucağı"na (qurban üçbucağına) düşməmək. Həssas qruplar üzrə sosial işin təşkilində terapevtik üsulların xüsusiyyətləri. | 1. Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, İstanbul Üniversitesi, AUZEF Yayını 2016<br>2. Prof. Dr. İlhan Tomanbay " Madde bağimliliği ve sosyal hizmet" İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, İstanbul Üniversitesi, Ders notu<br>3.https://karpmandramatriangle.com/<br>4.Diane Zimberoff–Breaking Free From The Victim Trap http://pakuapsikoloji.com/drama-ucgeni-kurban-kim<br>5.https://www.communicationtheory.org/the-johari-window-model/ |
| **12.** | Sosial işçilərin komanda idarəetmə prinsipləri | Komanda işi, meyarlar və komanda yaratma texnikaları. İdarəetmə yanaşmalarına görə üstünlük verilən komanda növləri. Komanda işi yanaşmalarına sosial iş perspektivindən baxış. | 1. Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, İstanbul Üniversitesi, AUZEF Yayını 2016<br>2. Prof. Dr. İlhan Tomanbay "Madde Bağımlılığı Ve Sosyal Hizmet" İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmetler Lisans Tamamlama Programı<br>3. Dr. Uğur Özdemir "Psikiyatrik Sosyal Hizmet" İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmet Lisans Tamamlama Programı, Ders notu, səh: 85-90<br>4. Arş. Gör. Nurullah Çalış Hacettepe Üniversitesi İ.İ.B.F Sosyal Hizmet Bölümü "Ekip |

| | | | |
|---|---|---|---|
| | | | Çalışması Yaklaşımlarına Sosyal Hizmet Perspektifinden Bakış"<br>5. https://www.belbin.com/ |
| **13.** | Sosial işin effektiv idarəetmə sistemləri və mexanizmləri | Sosial işin effektiv idarə edilməsi. Sosial işdə insan resurslarının idarə olunması. Sosial işdə və sosial xidmətdə maliyyə idarəetməsi qərarları. | 1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, 5-ci Fəsil (Sosial xidmətin maliyyələşdirilməsi və sosial xidmət haqqi), İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 30 dekabr 2011-ci il.<br>2.Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, İstanbul Üniversitesi, AUZEF Yayını 2016, səh 267-268.<br>3.T.C. Anadolu Üniversitesi, Açıköğretim Fakültesi, Prof.Dr. Deniz Taşçı, Prof.Dr.Nuray Gökçek Karaca, Yrd.Doç.Dr. Emre Demirci ve b. "Sosyal Hizmet Yönetimi" Ders Kitabı, Eskişehir, Ocak 2013, Səh: 37-49, 107-123.<br>4.Prof. Dr. Veli Duyan "Sosyal Hizmet Örgütlerinde Kaynak Yönetimi Unit 11", Atatürk Üniversitesi, Açıköğretim Fakültesi, səh: 6-11<br>5.http://sosyalcalisma.com/sosyal-hizmet-yonetimi-nedir/ |
| **14.** | Sosial işdə münaqişələrin idarə olunması | Münaqişələr və onların dinamikası. Münaqişələrin idarə edilməsi prinsipləri və qaydaları. Münaqişələrin qarşısının alınmasında sosial işin rolu. Münaqişələrin idarə edilməsində Glasl modeli | 1. Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, AUZEF Yayını 2016<br>2. Sezil Durmuş "Çatışma Yönetim Sistemi" İstanbul-2020<br>3. Kenneth Cloke and Joan Goldsmith "Çatışma yönetimi ", 2019. 4. Emin Karip "Çatışma Yönetimi", 2015<br>5. https://scientu.net/9-catisme-seviyeleri-ve-cozumleri/<br>6.https://stm.az/projects/researchs/sosial-munaqielerin-inkiaf-dinamikasnn-cemiyyete-tesirinin-tehlili |
| **15.** | Sosial işin idarə olunmasında beynəlxalq standartlar: təcrübə və meyllər | Beynəlxalq sferada sosial iş təcrübəsi. Beynəlxalq səviyyədə fəaliyyət göstərən sosial işçilərin vəzifələri. Sosial iş üzrə beynəlxalq təşkilatların təsnifatı | 1. Prof. Dr. İlhan Tomanbay "Sosyal hizmet yönetimi" (Ders notu) İstanbul Üniversitesi Açık Ve Uzaktan Eğitim Fakültesi, İstanbul Üniversitesi, AUZEF Yayını 2016<br>2. Doç.DR. Eda Purutçuoğlu, |

| | | | |
|---|---|---|---|
| | | | Uzman SHU Ecren Aydın "Dünya sosyal hizmet uyğulamaları" (Ders notu) İstanbul Üniversitesi Açık ve uzakdan eğitim fakültesi, İstanbul Üniversitesi, AUZEF, səh: 265-270.<br>3. Peter Erath, Brian Littlechild. "Avrupada Sosyal Çalışma", Sabev Yayınları. 2016, 16 Ülke Örneği.<br>4. European Union, "Konstitusiya" Araşdırmalar Fondu "Sosial iş bacarıqları", Bakı-2018, səh: 58-60<br>5.https://www.socialworkdegreecenter.com/best-international-social-work-job-opportunities/ |
| **YEKUN İMTAHAN** | | | |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ *(Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Bu fənn üzrə ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənnin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq

qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Bu fənn üzrə aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən yazılı imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

*Beləliklə, Fənn üzrə kredit qazanmaq üçün tələb olunan 100 balın ayrılması*

- *50 Bal – Yekun imtahanından əvvəl qazanılan*
- *30 Bal – Aralıq imtahanı*
- *20 Bal – Praktik iş (seminar)*

*Dərsdə Davamiyyət-75% Davam Məcburidir*

*50 bal – Yekun imtahanda qazanılmışdır.*

**TƏCRÜBƏ**

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

**Tərtib etdi:** **Baş müəllim *Köçərli Leyla Rais q.***